Partnership for Good Governance

COUNCIL OF EUROPE

EUROPEAN UNION

CONSEIL DE L'EUROPE

# Avropa İttifaqı /Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlığı çərçivəsində Azərbaycanda həyata keçirilən Layihələrin Nəticələri[1]

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq nədir?

2014-cü ilin aprel ayında, Avropa İttifaqı və Avropa Şurası insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına daha yaxınlaşmaq məqsədilə Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belorus) ilə məqsədli əməkdaşlıq layihələrinin icrası ilə bağlı razılığa gəlmişdir. Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq çərçivəsində həyata keçirilən layihələr əsasən Aİ tərəfindən maliyyələşdirilir. Avropa Şurası isə birgə maliyyələşdirici olmaqla yanaşı qeyd olunan layihələrin icrasını həyata keçirir.

14 regional layihəyə əlavə olaraq, **Azərbaycan üçün ümumi büdcəsi 4.9 milyon avro təşkil edən spesifik layihələr** vardır.

## Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi

Layihə 1 yanvar 2015-ci ildən 31 dekabr 2017-ci il tarixinə qədər davam edir.

- Sahə qiymətləndirmə Ədliyyə Akademiyasında hakim və vəkillərin təlim prosesini təkmilləşdirmək üçün təlim ehtiyaclarını müəyyən etmiş və yanaşmaları uyğunlaşdırmış, eləcə də Akademiya üçün insan hüquqları sahəsində davamlı təhsil üzrə yol xəritəsi hazırlamışdır;
- Təlimçilər üçün Təlim proqramı Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) üzrə praktiki təlim keçmək üçün 38 səriştəli təlimçidən ibarət qrup hazırlamışdır. Bu millli təlimçilər Azərbaycan Respublikası Ədliyyə Akademiyasının ixtisasartırma və davamlı təhsil proqramlarına daima cəlb edilə biləcək bacarıqlı mütəxəssislər oldular;
- 2017-ci ilin oktyabrına kimi müxtəlif məhkəmələri təmsil edən 284 hakim, ölkə üzrə 710 vəkil və 155 praktik hüquqşünas və insan hüquqları müdafiəçiləri iki günlük təlim seminarları ərzində Avropa insan hüquqları standartları üzrə təlim keçmişdir;

---

[1] Əvvəllər Avropa Şurasının /Avropa İttifaqının Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belorus üçün Proqramlı Əməkdaşlıq haqqında Çərçivə Sazişi adlanırdı.

- Ədliyyə Akademiyasının təlimçilər qrupu HELP proqramı üzrə xüsusi hazırlanmış dörd günlük təlim sessiyasında iştirak etmişdir; AİHK-nın 5-ci maddəsinə dair HELP kursunun dəqiq versiyası yekunlaşdırılmışdır;
- Ədliyyə Akademiyasında hakimlərin seçilməsi prosesinin hazırlıq təlimi mərhələsini keçən 63 hakimliyə namizəd Avropa Şurasının və AİHM-in fəaliyyəti ilə tanış olmaq üçün Strasburqa təlim səfərində iştirak etmişlər;
- Avropa Şurası və Avropa Məhkəməsi tərəfindən hazırlanmış doqquz məlumat kitabçası və bələdçi kitab Azərbaycan dilinə tərcümə olunmuş və 3000 nüsxədə çap olunmuşdur. Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisi Metodologiyasına dair HELP bələdçi kitabı Azərbaycan dilinə tərcümə olunmuşdur. AİHK üzrə seçilmiş 20-dən çox kitab toplusu alınmış və Ədliyyə Akademiyasının kitabxanasının zənginləşdirilməsi üçün təqdim edilmişdir.

Bu layihə haqqın informasiya bülleteninə keçid

## Azərbaycan Respublikasında ədliyyə xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması

Layihənin icrası 2015- cilin aprelində 31 mart 2017-ci il tarixinə qədər davam etmişdir (ətraflı məlumat).

- Bakıda və Azərbaycanın regionlarında yerləşən beş pilot məhkəmədə məhkəmələrin səmərəliliyi və keyfiyyəti Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən hazırlanmış məhkəmə proseslərində vaxtın idarə edilməsinə və məhkəmə sisteminin keyfiyyətinə dair alətlərin tətbiq edilməsi vasitəsilə təkmilləşdirilmişdir. CEPEJ-in Azərbaycandakı məhkəmə sisteminə dəstəyinin məqsədi məhkəmə istifadəçiləri, ictimaiyyətin şəffaflığı və kommunikasiyasının artırılması ilə yanaşı məhkəmələrin qiymətləndirilməsi və idarə olunması məqsədləri üçün şikayətlərin həlli səviyyəsi və işə baxılma müddətləri, habelə məhkəmədə vaxtın idarə edilməsi, məhkəmə statistikasının təkmilləşdirilməsi idi.
- 5 pilot məhkəmələrin nümayəndələri və digər ədliyyə sisteminin tərəfdaşları (Ədliyyə Nazirliyi, Məhkəmə Hüquq Şurası və Ədliyyə Akademiyası) CEPEJ metodologiyasının praktikada icra olumnası və məhkəmələrin fəaliyyətinin analizi, vaxt və keyfiyyətinin idarə edilməsi üçün ən yaxşı Avropanın təcrübəsi ilə tanış olmuş və təkminləşdirilmişdir. Məhkəmələr məhsuldarlıq və keyfiyyət göstəriciləri göstərməklə illik hesabatlar hazırlammış və bu hesabatlar CEPEJ tövsiyələri istiqamətində ictimaiyyətə çatdırılmışdır.
- Pilot məhkəmələr məhkəmə istifadəçiləri, hüquqşünaslar və məhkəmə işçiləri arasında məmnuniyyət sorğusu aparmışdır. Məhkəmələrin rəhbərliyi tərəfindən araşdırmalar aparılmış və məhkəmələrin fəaliyyət göstərən ən kritik sahələrində vəziyyətin yaxşılaşmasına dair nəticə əldə edilmişdir. CEPEJ tərəfindən təklif olunan metodologiyaya uyğun olaraq aparılmış məmnuniyyət sorğusu xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması baxımından əlverişli və effektiv idarəetmə vasitəsidir.
- Məhkəmə idarəçiliyi üzrə tədris planı Fransa Milli Mühakimə Məktəbi (ENM) ilə əməkdaşlıqla hazırlanmış və Ədliyyə Akademiyasının təlim proqramının tərkib hissəsi olmuşdur. Bu təlim fəaliyyətlərində ümumi sayı 150 nəfər olmaqla hakim və məhkəmə işçisi iştirak etmişdir.

Bu layihə haqqında informasiya bülleteninə keçid

## Azərbaycanda korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması üçün bacarıqların artırılması

2015-ci ilin yanvar ayından layihənin icrasına başlanmışdır və layihə 2017-ci ilin dekabr ayına qədər davam edəcəkdir.

- "Dövlət qulluğunda etik davranış" və "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə" mövzularında təlimçilərin təlimi kurslarında iştirak etmiş 25 milli təlimçi bazası yaradılmışdır ki, bu da gələcəkdə Azərbaycan hökumətinin dövlət qulluğu, təhsil sektoru və vətəndaş cəmiyyəti nümayəndələri üçün qeyd olunan iki mövzu üzrə müvafiq təlimlərin müstəqil şəkildə təşkil edilməsi ilə bağlı bacarıqlarının artırılmasına dəstək olacaqdır;
- Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Dövlət İmtahan Mərkəzi tərəfindən seçilmiş və layihə tərəfindən sertifikatlaş almış dörd milli təlimçi tərəfindən etik davranış qaydaları və korrupsiyaya qarşı mübarizə üzrə üç regional pilot təlim keçirilmişdir;
- Xidməti fəaliyyətinin qiymətləndirilməsinin həyata keçirilməsində dövlət qulluqçularının bacarıqlarının artırılması məqsədilə Dövlət Qulluğunda Xidməti Fəaliyyətin Qiymətləndirilməsinə dair Təlimat Kitabçası hazırlanmışdır. Bundan əlavə, insan resursları sahəsində çalışan 24 dövlət qulluqçusu üçün təlimçilərin təlimi kursu keçirilmişdir. Pilot təlim Quba rayonunda təşkil edilmiş və sertifikat almış iki milli təlimçi tərəfindən keçirilmişdir;
- Prokurorluq və istintaq orqanlarının, eləcə də hakimlərin korporativ cinayət məsuliyyəti və cinayət haqqında məlumat verən şəxslərin müdafiəsi sahəsində bilik və bacarıqları artırılmışdır. Müvafiq təlim materialları hazırlanmışdır;
- 2016-cı ildə layihə tərəfindən hazırlanmış və 2017-ci ildə tətbiqinə başlanmış elektron platformanın davamı olaraq, 2016-2018-ci illər üzrə Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planının icra səviyyəsinin qiymətləndirilməsi üçün metodologiya, o cümlədən qiymətləndirmə qaydaları və nailiyyət indikatorları işlənib hazırlanmışdır. Bu metodologiya Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya üçün Fəaliyyət Planında nəzərdə tutulmuş və elektron platformada hesabat formasında təqdim olunan fəaliyyətlərin icra səviyyəsinin düzgün ölçülməsinin həyata keçirilməsində təlimat (bələdçi) rolunu oynayacaqdır;
- "Azərbaycan Respublikası Milli Məclisi Deputatının Etik Davranış Qaydaları" haqqında qanun layihəsinin Korrupsiyaya qarşı Mübarizəsində təlimat (bələdçnun (GRECO) tövsiyələrinə uyğunluğunun təmin edilməsi məqsədilə sözügedən qanun layihəsi haqqında Azərbaycanın müvafiq dövlət orqanlarına hüquqi rəy bildirilmişdir.

Bu Layihə haqqında informasiya bülletenınə keçid

## İfadə azadlığı və media azadlığı

Bu layihənin icrası 2015- ci il yanvar ayından 31 dekabr 2017-ci ilə qədər davam edir.

- Təxminən 300 jurnalist və media professionalı seçkilərin KİV tərəfindən işıqlandırılması, jurnalistlərin təhlükəsizliyi, informasiyanın əldə olunması, gender bərabərliyi və media, ifadə azadlığı və şəxsi həyata hörmət hüququ, internet və insan hüquqları üzrə Avropa Şurası standartları və daxili qanunvericiliyin müvafiq müddəaları haqqında təlim keçmişdir;
- Təxminən 225 hüquqşünas (hakimlər, vəkillər, prokurorlar, hakimliyə namizədlər) Avropa Şurasının ifadə azadlığı və media azadlığına dair standartları üzrə təlim keçmişdir;
- Müvafiq dövlət orqanlarının 30-a yaxın mətbuat katibi və Ombudsman Aparatının əməkdaşları Avropa Şurasının informasiyanın əldə olunmasına dair standartları üzrə təlim keçmişdir;
- 1 mart 2016-cı il tarixində İnternet və İnsan Hüquqları üzrə konfrans keçirilmişdir. Konfrans dövlət orqanlarını, medianı, elmi müəssisələri və vətəndaş cəmiyyətini təmsil edən 70 nümayəndənin Avropa Şurasının internetdə insan hüquqlarının müdafiəsi, eləcə də İnternet infrastrukturu və onlayn mediaya dair standartları haqqında məlumatlılıq səviyyəsini artırmışdır;
- 31 may 2016-cı il tarixində Difamasiyaya dair dəyirmi masa keçirilmişdir. Dəyirmi masa dövlət orqanlarını, medianı, elmi müəssisələri və vətəndaş cəmiyyətini təmsil edən 60 nümayəndənin Avropa Şurasının və

Avropanın difamasiya məsələləri və ifadə azadlığına dair standartları və qabaqcıl təcrübələri üzrə məlumatlılıq səviyyəsini artırmışdır;

- 25 Azərbaycan jurnalisti 11 – 12 may 2016-cı il tarixində və 22 -24 mart 2017-c il tarixində Strasburq şəhərində təşkil olunan təlim səfərində iştirak etmiş və ifadə azadlığı və media azadlığı sahəsində Avropa Şurasının və AİHM-in işi ilə tanış olmuşdur;
- "Jurnalistin etik davranışı" və "KİV və ifadə azadlığı" üzrə iki kurs üçün kurrikulum işlənib hazırlanmış və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində tədrisdə istifadə olunur;
- İnternet İstifadəçiləri üçün İnsan hüquqları üzrə Bələdçi və Avropa İnsan Hüquqları Konvensiyasının 10- cu maddəsi üzrə Bələdçi tərcümə edilərək nəşr edilmişdir;
- Jurnalistika sahəsində dörd dərslik – TV Jurnalistika, Foto Jurnalistika, Radio Jurnalistika və Yeni media Jurnalistikası Layihə çərçivəsində nəşr olunmuş və iki universitetin jurnalistika fakültəsinin tələbələri dərsliklərlə təmin olunmuşdur.

Layihə haqqında informasiya bülleteninə keçid

**Ətraflı məlumat üçün bax:** http://partnership-governance-eu.coe.int
**Əlaqə üçün şəxs:** Nikola Hauson, Kommunikasiya üzrə Məsul Şəxs, +33 3 88 41 22 39

**Sentyabr 2017-c il**